**UDK: 688**

# YERLİ BAZARA DAXİL OLAN XIRDAVAT MALLARININ KEYFİYYƏTİNİN EKSPERTİZASININ ƏHƏMİYYƏTİ

**Ş.A.MƏMMƏDOVA**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

*Bu məqalədə istehlak bazarına daxil olan xırdavat mallarının keyfiyyəti, çeşidi və bazar seqmentində vəziyyəti araşdırılıb. Mövzu əsasən lifli materialdan və göndən olan xırdavat malları əsasında yazılmışdır. Xırdavat mallarına istehlak bazarında tələbat çox olduğuna görə xarici ölkələrdən də bazara müxtəlif mallar çoxlu sayda daxil olur. Məhz buna görə də bu malların keyfiyyətinin ekspertizası aparılmalıdır. Məqalədə xırdavat malları anlayışı analiz edilmişdir və əsasən tekstil və gön xırdavatı qruplarının çeşidi haqqında məlumat verilmişdir. Ölkəmizin bu sahədə olan imkanları araşdırılıb və müqaisə metoduna əsasən digər ölkələrdən daxil olan malların keyfiyyət fərqləri müəyyən olunmuşdur. Ölkəmizin istehlak bazarına daxil olan gön və tekstil xırdavatı mallarının illər üzrə statistik göstəriciləri də təhlil olunmuşdur və ölkəmizdə bu malların istehsalının inkişafı müşahidə olunur. Xırdavat mallarının keyfiyyətinin təyin olunmasında əsas göstəricilərdən biri onların istehlak xassələridir. Hər bir mal qrupunun özünə məxsus istehlak xassələri var və bu xırdavat mallarının nə dərəcə də əhəmiyyətli olmasını göstərir. Ona görə də məqalədə xırdavat mallarının istehlak xassələri də təhlil olunmuşdur. İstehlak bazarının keyfiyyətli xırdavat malları ilə təmin olunması müasir ölkə iqtisadiyyatının qarşısında duran problemlərdən biridir. Bazar seqmentində bu malların payının formalaşması və rəqabətədavamlı olması məhz onların keyfiyyətindən asılıdır. Bu malların keyfiyyətinin qiymətləndirilməsi ekspertlər tərəfindən aparılır və bu zaman müxtəlif metodlardan istifadə olunur, sınaqlar aparılır. Sorğular aparılaraq istehlakçıların bu mallara olan tələbatı müəyyən olunur və bu da həmin malların istehsalının artmasına, yüksək keyfiyyətli mallar istehsal olunmasına gətirib çıxarır.*

***Açar sözlər**: xırdavat malları, keyfiyyət, istehlak bazarı, ekspertiza, istehlak xassələri.*

Bazar seqmentində geniş yer tutan, əsasən kiçik ölçülü və istehlak bazarında daim tələb olunan mallar xırdavat mallarıdır. Fransız dilindən tərcümədə "galant" sözü zərif, nəfis kimi mənaları özündə birləşdirir(2, səh. 4). Bu qrupa müxtəlif xammaldan istifadə olunmaqla və müxtəlif texnoloji üsullarla hazırlanmış məmulatlar, ev əşyaları, tualet və bəzək əşyaları və s. daxildir. *Məsələnin aktuallığı* ondan ibarətdir ki, istehlakçılar tərəfindən geniş istismar olunur və bu mallarsız bazarı təsəvvür etmək olmur. Xırdavat mallarının təsnifatı çox mürəkkəbdir, çünki müxtəlif amillərə görə bir-birindən fərqləndirilə bilər. Xırdavat malları əsasən iki əlamət üzrə təsnifləşdirilir: istehsalında istifadə olunan xammalına və təyinatına görə. İstehlak bazarına daxil olan xırdavat malları ilk xammalından asılı olaraq aşağıdakı qruplara bölünür: tekstil xırdavat malları; metal xırdavat malları; gön xırdavat malları; plastik kütlə xırdavatı; güzgülər və fırça malları. Xırdavat malları çox geniş olduğuna görə keyfiyyətinin ekspertizası tekstil və gön xırdavat malları üzərində aparılacaq.

**Məqalənin məqsədi.** İşin məqsədi istehlak bazarına daxil olan tekstil və gön xırdavat mallarının keyfiyyətinin ekspertizası, onun bazar seqmentində analizidir. Bu məqsədə çatmaq üçün qarşıya aşağıdakı yerinə yetirilməli vəzifələr çıxır:

- Tekstil və gön xırdavat mallarının çeşidinin öyrənilməsi;
- Bu malların xammalının və istehsal texnologiyasının öyrənilməsi və onların malın keyfiyyətinə təsiri;
- Onların istehlak xassələri və keyfiyyət göstəricilərinin müəyyən olunması;
- Laboratoriya və orqanoleptik üsulla tədqiqat obyektlərinin keyfiyyətinin qiymətləndirilməsi;
- Ölkəmizdə xırdavat malları bazarının təhlili;
- Xırdavat mallarının istehsal imkanları və bazarın yüksək keyfiyyətli xırdavat malları ilə təmin olunması.

Tekstil xırdavat mallarına hörgü saplarından, iplərdən və parçalardan müxtəkif üsullarla hazırlanmış mallar daxildir. Onlar aşağıdakı yarımqruplara bölünür:

- lent tikiş sapları (dekorativ işləmə lentləri, geyim lentləri, tədbiqi lentlər, xüsusi təyinatlı lentlər);
- hörmə (tesma, mebel ipləri, pərdə, dekorativ hörmələr);
- tikiş xırdavatı (qalstuklar, bədii işləməli məhsullar, bədii tərtibatlı mallar);
- pərdə-tül işləmələri və krujeva, çətirlər;
- çətirlər.

Tekstil xırdavat mallarının istehlak xassələrinin formalaşmasına təsir edən əsas faktorlar xammal, istehsal texnologiyası və məmulatın konstruksiyasıdır. Bu malların istehsalı zamanı müxtəlif xammallardan istifadə olunur: pambıq, kətan, yun, ipək, süni və

sintetik saplar, həmçinin müxtəlif parçalardan istifadə olunur. Tekstil xırdavat məmulatları toxunma, burulma, hörmə və tikişlə hazırlanır.

Gön xırdavat malları istifadə şərtlərindən asıllı olaraq məişət və xüsusi mallara ayrılır. Onlar da öz növbəsində təyinatına görə 3 qrupa bölünür:

- Predmetlərin daşınması və saxlanması üçün (sumka);
- Müxtəlif predmetlərin birləşdirilməsi üçün (kəmər);
- Əllərin xarici təsirlərdən qorunması üçün (əlcək).

Gön xırdavat mallarının keyfiyyət göstəriciləri standartların tələblərinə uyğun olmalı, konstruksiyası rahat olmalı və etibarlı olmalıdır.

Gön xırdavatı və yol ləvazimatı istehsalında müxtəlif gön və gön əvəzedicilərindən istifadə olunur. Bundan başqa parça, karton, müxtəlif furnitura və bir sıra digər əlavə materiallardan da istifadə olunur. Gön xırdavatı və yol ləvazimatı istehsalında istifadə olunan hazır gönlər xüsusi emal vasitəsilə iribuynuz və xırdabuynuz mal-qara dərilərindən, donuz, at, maral, dəniz heyvanları və s. dərilərindən alınır. İstifadə olunan xammalın keyfiyyəti hazır gön xırdavatının keyfiyyətini və istehlak xassələrinə təsir edir.

Gön xırdavatı və yol ləvazimatı istehsalında əsas əməliyyat detalların hazırlanmasından, onların birləşdirilməsindən və hazır məmulatın bəzədilməsindən ibarətdir. Bu malların keyfiyyəti uyğun standartlar, normativ - texniki sənədlərin tələblərinə və nümunə - etalonun göstəricilərinə əsasən müəyyən olunur.

Əmtəəşünas-ekspert malın keyfiyyətini müəyyən etməkdən başqa istehlak xassələrini nə dərəcədə itirdiyini müəyyən edə bilər. Ekspertlərin səlahiyyətinə sahibkara dəyən zərərin məbləğinin təyin edilmisi də daxildir. Ekspertiza - bu həlli xüsusi bilik və bacarıq tələb edən məsələlərin həllidir. Ekpertiza zamanı mütləq həmin sahəyə uyğun standartlar və normativ texniki sənədlərdən istifadə olunmalıdır (4, səh. 31). Bu həmçinin xırdavat mallarının keyfiyyətinin araşdırılmasında tədbiq olunur. Müqayisə metodu ilə keyfiyyətin ekspertizası zamanı alınan nəticələrin standartlara uyğunluğu müəyyən edilir, tədqiqat işində bu metoddan geniş istifadə olunur.

**Məsələnin həll üsulları.** Xırdavat məmulatlarının istehlak xüsusiyyətlərinin öyrənilməsi prosesi bu mərhələlərdən ibarətdir : analitik, müqayisəli və sintez (tədqiqatın nəticələrinin qiymətləndirilməsi). Xırdavat məmulatlarının araşdırılmasının məqsədi, malın faktiki vəziyyətinin təyini vaxtı qüsurların əlamətlərinin üzə çıxardılması və keyfiyyətə təsir nöqtəyi-nəzərindən onların məcmusunun qiymətləndirilməsidir. Təyinatı üzrə məmulatın sonrakı istifadəsi zamanı keyfiyyətin və yararlığının azalmasına istifadənin təsirinin müəyyənləşdirilməsi üçün istismar əlamətlərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi ekspert əmtəəşünaslıq tədqiqatının vəzifəsidir.

Bütövlükdə əmtəəşünaslıq ekspertizalarının keçirilməsi təcrübəsi xırdavat məmulatlarının ekspertizalarının bir neçə istiqamətini formalaşdırmışdır: keyfiyyət ekspertizası; kəmiyyət ekspertizası; dəyər ekspertizası; sənəd ekspertizası; kompleks ekspertiza; çeşid ekspertizası; məmulatların identifikasiya ekspertizası.

Tekstil və gön xırdavat mallarının keyfiyyətinin ekspertizası zamanı malların nöqsanlarının əlamətləri aşkar edilir və aşkar edilmiş nöqsanların yaranması səbəblərini araşdırıb həll yolları müəyyən edilir. Götürülmüş əmtəələrin tədqiqi aşağıdakı mərhələlər üzrə aparılır: görünən nöqsanların aşkar edilməsi və müəyyən edilmiş nümunə-etalona uyğunluğun yəqin etmək məqsədilə baxış və əsas parametrlərin ölçülməsi; işdə və istehlakda yoxlama; sınaq (1, səh. 3). Bazara daxil olan malın keyfiyyətinin araşdırılmasında bu mərhələlər əsas rol oynayır.

İstehlakçılar arasında aparılan sorğulara əsasən müəyyən olunmuşdur ki, istehlak bazarında xırdavat malları dedikdə, istehlakçılar bu mallara aid olmayan malları başa düşürlər. Məsələn; “1001 xırdavat” adı altında fəaliyyət göstərən satış məntəqələri mövcuddur ki, burada bir sıra xırdavat malları satışa çıxarılsa da müəyyən xırdavat mal qrupuna aid olmayan mallar da satışa çıxarılır və bu istehlakçılarda səhv məlumat formalaşdırır. Məhz buna görə də bu anlayışın istehlak bazarında təhlili aktual məsələ olmalıdır. İstehlak bazarına daxil olan xırdavat mallarının təhlili ilk öncə onun istehlakçılar tərəfindən necə başa düşülməsi ilə əlaqədardır.

**Nəticə.** Malın keyfiyyəti təyinatına uyğun olaraq müəyyən tələbatı ödəmək üçün onun yararlığını təyin edən xassələrin məcmusudur (3, səh 51). Xırdavat mal qrupuna daxil olan malların keyfiyyəti isə istehlak xassələri, keyfiyyətinə verilən tələblər və istehlak üçün yararlığı ilə təyin olunur. İşin əsas məqsədi istehlak bazarına daxil olan xırdavat mallarının təhlili və keyfiyyət ekspertizasından ibarətdir. Hər bir malın keyfiyyəti ilk xammalından tutmuş hazır məhsula qədər dəyişə bilər ki, buna bir sıra amillər təsir göstərir. İstehlak bazarında daim yüksək keyfiyyətli mallara tələbat var və buna görə də məhsulun keyfiyyətinin yüksəldilməsi cəmiyyət üçün ən vacib məsələlərdən biridir.

Azərbaycanda xırdavat mallarının istehsalı və ixracı üçün geniş imkanlar mövcuddur. Hal-hazırda xırdavat malları üzrə Azərbaycanın idxal bazarında əsas yer tutan ölkələr Çin və Rusiyadır. Bu ölkələrin bazarlarından ölkəmizə idxal edilən xırdavat malları geniş çəşidliyə malik olsa da keyfiyyət göstərəciləri aşağıdır. Bunun da əsas səbəblərdən biri Çin və

Rusiyada xırdavat malları bazarında malların keyfiyyətinə nəzarət mürəkkəb proseslərdən biridir. Məhz buna görə də ölkəmizdə xırdavat mallarının keyfiyyətinin ekspertizası aktual məsələdir. Ölkəmizin xammal bazasının geniş olması ölkəmizdəbu məhsulların istehsalına imkan verir və bazarı yüksək keyfiyyətli mallarla təmin etmək mümkün olacaq. Əgər bu sahədə işlər görülsə istehlak bazarı yüksək küyfiyyətli mallarla təmin olunar və istehlakçıların tələbləri ödənmiş olar. Son illər ölkəmizdə tekstil xırdavatı sahəsində irəliləyiş müşahidə olunur. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2013-cü ildən 2017-ci ilin sonuna qədər göstəricilərinə əsasən bu qənaətə gəlmək olar və cədvəl (1)-də göstərilmişdir.(5)

**Cədvəl 1.**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin göstəriciləri.

| **İllər üzrə** | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| **Xırdavat mallarının pərakəndə satışı (toxuculuq üçün)** (*min manat*) | 14837.1 | 18265.2 | 19291.9 | 24728.4 | 29312.9 |
| **Pərakəndə ticarət dövriyyəsinin strukturu** (min manatla) | | | | | |
| **Qeyri-ərzaq məhsulları** | 5491 707,1 | 6200046,3 | 7351814,9 | 8625451,9 | 1002971 8,5 |
| **Xırdavat maları** | 12 135,9 | 13 003,7 | 14 765,5 | 16 511,8 | 20 638,8 |

**ƏDƏBIYYAT**

1. Ə. P. Həsənov, T. R. Osmanov , N. N. Həsənov və başqaları. "Qeyri-ərzaq mallarının ekspertizasının praktikumu". Bakı : "İqtisad Universiteti Nəşriyyatı" , 2014, 451 səhifə. 2. Osmanov T.R. Qeyri-ərzaq mallarının əmtəəşünaslığı və ekspertizasının əsasları. Dərlik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı-2014.-.530 səh. 3. Товароведение и экспертиза галантерейных товаров:Учеб.пособие для студ.высш. заведений / Ирина Вадимовна Шишкина.-М.:Издательский центр «Академия» ,2003,-192 с. 4. Сыцко, В. Е. Товароведение и экспертиза одежно-обувных товаров (трикотаж, галантерея, ювелирные, парфюмерно-косметические товары, часы) : курс лекций для студентов специальности 1-25 01 09 «Товароведе-ние и экспертиза товаров» специализации 1-25 01 09 02 «Товароведе-ние и экспертиза непродовольственных товаров» / В. Е. Сыцко. – Го-мель : учреждение образования «Белорусский торгово-экономичес-кий университет потребительской кооперации», 2009. – 80 с. 5. https://www.azstat.org/MESearch/details.

**ЗНАЧИМОСТЬ ЭКСПЕРТИЗЫ ГАЛАНТЕРЕЙНЫХ ТОВАРОВ ВВОЗИМЫХ НА МЕСТНЫЙ РЫНОК.**

**Ш.А.Мамедова**

В данной статье проведен анализ качества, ассортимента и сегмента рынка галантерейных товаров, ввозимых на потребительский рынок. Тема в основном основана на волокнистых материалах и кожаных товарах. Из-за высокого спроса на потребительские товары в этой отрасли импортные товары также поступают на рынок с большим количеством ассортимента. Именно поэтому качество этих товаров должно быть проанализировано. В статье анализируется концепция более мелких товаров , а именно текстильных и вязанных групп. Были исследованы возможности и потенциал нашей страны в этой отрасли, и анализировано качество товаров из других стран путем сравнения. Были исследованы статистические показатели товаров из меха и текстиля, импортируемых на потребительский рынок нашей страны, также были проанализировано развитие производства этих товаров в нашей стране. Одним из ключевых показателей при определении качества товаров являются их потребительские свойства. Каждая товарная группа имеет свои потребительские свойства и показывает, насколько она важна для товара. Поэтому в статье также проанализированы потребительские свойства небольших единиц товаров. Обеспечение потребительского рынка высококачественными товарами является одной из задач, стоящих перед современной экономикой. Формирование и конкурентоспособность этих товаров в сегменте рынка зависит от их качества. Качество этого товара оценивается экспертами, используются различные методы, проводятся испытания. Обследования проводятся для определения потребительского спроса на эти товары, что приводит к увеличению производства товаров и товаров высокого качества.

***Ключевые слова:*** *галантерейные товары, качество, потребительский рынок, экспертиза, потребительские свойства.*

**THE IMPORTANCE OF INVESTIGATION OF HABERDASHERY GOODS IMPORTED TO NATIONAL MARKET**

**SH.A.Mammadova**

This article examines the quality, variety and market segment of the haberdashery goods included in the consumer market. The subject is mainly based on fibrous materials and leather goods. Because of the high demand for haberdashery goods in the consumer market, imported goods also enter the market with a large number. That is why the quality of these goods should be examined. The article analyzes the concept of haberdashery goods and has been largely informed about the variety range of textile and leather haberdashery groups. The opportunities of our country have been investigated and the quality differences of goods from other countries are determined through the comparison method. The statistical indicators of the leather and textile goods imported into our country's consumer market have also been analyzed and the development of these goods is observed in our country. One of the key indicators in determining the quality of the haberdashery goods is their consumption properties. Each commodity group has its own consumer properties, and it shows how important these goods are. Therefore, the article also analyzed the consumer properties of haberdashery goods. Providing the consumer market with high quality goods is one of the challenges that the modern national economy is facing. Development and competitiveness of these goods in the market segment depends on their quality. The quality of these goods is evaluated by experts, and various methods are used, tests are conducted. Surveys are conducted to determine consumers' demand for these goods, which leads to increased production of goods and high quality goods.

***Key words:*** *haberdashery wares, quality, consumer market, examination, consumer properties.*

lakar1996@gmail.com